# Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı üzrə Milli Strategiya

**(2009-2020-ci illər)**

***Layihə***

**“Bədən tərbiyəsi və idman xalqın sağlamlığı ilə bağlı olan mühüm bir sahədir. Dünyada bədən tərbiyəsi və idmanın müasir səviyyədə inkişaf etdiyi bir dövrdə Azərbaycanda idmanın, bədən tərbiyəsinin kütləvi surətdə inkişaf etməsinə ciddi fikir verməliyik. Bu bizim vəzifəmizdir, borcumuzdur".**

*Heydər Əliyev*

**İdman ənənəvi komanda oyunlarından və rəqabətdən daha artıq, məsələləri əhatə edir: "İdman fiziki fəaliyyətin bütün formalarının məcmusu olaraq, belə fəaliyyətlərdə arabir və ya mütəşəkkil iştirak etmə vasitəsilə fiziki formanı və əqli sağlamlığı nümayiş etdirmək və ya yaxşılaşdırmaq, sosial münasibətləri formalaşdırmaq, yaxud bütün səviyyələrdəki yarışlarda uğur qazanmaq məqsədi daşıyır".**

*Avropa Şurasının "Avropa*
*İdman Xartiyası"ndan*
*1993-cü il*

## 1. Strategiyaya baxış

Müstəqil Azərbaycan Respublikasında dövlətin qarşısında duran tarixi vəzifələrin, o cümlədən dövlətçiliyin, iqtisadiyyatın və sosial sahələrin inkişafı və möhkəmləndirilməsində, şəxsiyyətin harmonik inkişafında, gənclərin əməyə və vətənin müdafiəsinə hazırlanmasında bədən tərbiyəsi və idmanın gündəlik həyatımıza daxil edilməsi məsələsi dövrümüzün daha da aktuallaşan əsas tələblərindən birinə çevrilmişdir.

Məlum olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafı vəziyyəti ölkənin hərtərəfli inkişafına xidmət edir. İnsanların fiziki cəhətdən sağlam və güclü olması dövlətin müdafiəsini və iqtisadiyyatının yüksəlməsini təmin edir. 1993-cü ildə ulu öndər, dahi siyasətçi Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra bu sahəyə dövlət səviyyəsində diqqət və qayğı gündən-günə artırılmaqdadır. Son illərdə ölkəmizdə bədən tərbiyəsi və idman hərəkatı üçün yaranmış imkanlar, həyata keçirilən konkret tədbirlər bu sahədə istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə qazanılan uğurlar və əldə olunmuş nailiyyətlər bədən tərbiyəsi və idmanı dövlət siyasətinin prioritetlərindən birinə çevirmişdir. Azərbaycanda insanların bədən tərbiyəsi və idmanla məşğulluğa istək və marağını, eləcə də bu istəklərin reallığa çevrilmə imkanlarını aşağıdakı faktlar əyani nümayiş etdirir:

- Azərbaycan hökuməti ölkədə bədən tərbiyəsi və idmanı daha geniş formada, kütləvi şəkildə inkişaf etdirməyə qərarlıdır;
- Azərbaycan dövləti bədən tərbiyəsi və idmanın inkişafı üzrə xüsusi qanun qəbul etmiş, bu sahədə qanunvericilik əsasları yaratmış, hüquqi-normativ və digər direktiv sənədlər işləyib hazırlamışdır;
- Ölkədə bədən tərbiyəsi və idmanın bütün sahələr və ayrı-ayrı təbəqələr, həmçinin yaş qrupları üzrə inkişafının təmin edilməsi sistemi yaradılmış, bu sahənin idarə edilməsi strukturu müəyyən edilmişdir;
- Ölkədə bədən tərbiyəsi və idmanın inkişafına dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin həcmi ildən-ilə artırılır. Bu sahə ilə məşğul olan ictimai, qeyri-hökümət orqanları və özəl qurumlar da bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində konkret tədbirlər həyata keçirirlər;
- Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, bütün şəhər və rayonlarda yeni idman obyekt və qurğularının, olimpiya komplekslərinin inşasının dövlət səviyyəsində planlaşdırılması və müəyyən olunmuş müddətlərdə istifadəyə verilməsi;
- Azərbaycan Respublikasında hər növbəti 4-illik müddətə (Olimpiya dövrünə) bədən tərbiyəsi və idmanın inkişafı üzrə Dövlət Proqramının qəbul və icrasının təmin edilməsi.

## 2. Cari vəziyyəti xarakterizə edən əsas amillər

Ölkədə bədən tərbiyəsi və idmanın hazırkı vəziyyətinin təhlili bu sahənin gələcək inkişafının təmin edilməsində dövlət səviyyəsində yaradılmış imkanlarla yanaşı, bir sıra problem və çətinliklərin mövcudluğunu da əks etdirir.

**Cari vəziyyəti müsbət xarakterizə edən amillər**

- Fəal yaş qruplarından (5-39 yaş) olan insanların əhalinin ümumi sayının 60%-ni təşkil etməsi;
- Əhalinin savadlılıq və təhsil səviyyəsinin yüksək olması (90-95%);
- İnsanların, xüsusən yeniyetmə və gənclərin bədən tərbiyəsi və idmanla məşğulluğa kütləvi surətdə maraq göstərmələri;
- İlin çox hissəsinin açıq havada bədən tərbiyəsi və idmanla məşğul olmağa imkan verən ölkə ərazisindəki əlverişli iqlim şəraiti;
- Dövlət, qeyri-dövlət və özəl qurumlar tərəfindən bədən tərbiyəsi və idmanla məşğulluğa yaradılmış imkanlar;
- Bu fakt son illər əhalinin yoxsulluq təşkil edən hissəsinin 16%-ə enməsi, ümumdaxili məhsulun istehsalının 2007-ci illə müqayisədə 32%-ə qalxması, bununla da adambaşına düşən gəlirin 865 manatdan artıq olması ilə xarakterizə edilir;
- Regionlarda olimpiya komplekslərinin və təlim-idman obyektlərinin sayının ildən-ilə artırılması
- Milli idman növlərinin inkişafına diqqətin artırılması;
- Hər təqvim ilində əhalinin bütün yaş qruplarını əhatə edən kütləvi bədən tərbiyəsi-sağlamlıq və idman tədbirlərinin təşkili və keçirilməsi;
- Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandıqları uğurlar;
- Dövlətin bədən tərbiyəsi və idmanın inkişafı sahəsində apardığı siyasət.

**Cari vəziyyəti mənfi xarakterizə edən amillər**

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun, Bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramının, eləcə də bu sahədəki digər hüquqi-normativ direktiv qərar və sərəncamların yerlərdə icrasında ləngimələr, buraxılan səhvlər və çatışmamazlıqlar;

- Şəhər və rayonlarda idman obyektlərinin əhalinin sayına nisbətdə son dərəcə az olması;

- Regionlarda idman yönümlü təşkilatların məhdud sayda olması, yaxud heç olmaması;

- Fəaliyyət göstərən idman təşkilatlarının, xüsusən həmkarlar ittifaqlarının idman təşkilatlarının maddi-texniki bazasının son dərəcə zəif olması;

- Qızlar və qadınlar, eləcə də sağlamlıq imkanları məhdud olan insanlar arasında bədən tərbiyəsi və idmanın təbliğinin tələb olunan səviyyədə aparılmaması;

- Ayrı-ayrı idman növləri üzrə, xüsusən oyun növləri üzrə peşəkar klubların yerlərdə yaradılmaması, idmanda rəqabətin zəif olması;

- Yerlərdəki mövcud imkanlardan tam istifadə edilməməsi;

- Bədən tərbiyəsi və idman işlərinin təşkili və idarə edilməsinə yerli bələdiyyə orqanlarının cəlb olunmaması;

- Bədən tərbiyəsi və idman sahəsi üzrə elmi-tədqiqat institutunun olmaması;

- Bədən tərbiyəsi və idmanın təbliği işlərinin zəif aparılması. İdman jurnalistikası üzrə peşəkar mütəxəssislərin hazırlanması sisteminin olmaması;

- Ölkədə bədən tərbiyəsi və idman sahəsində kadr çatışmamazlığı. Yüksək təsnifatlı peşəkar mütəxəssislərin son dərəcə az sayda olması. Bu sahədə çalışan mütəxəssislərin aylıq əmək haqlarının respublika üzrə müəyyən edilmiş orta aylıq əmək haqqı səviyyəsindən aşağı olması;

- Bədən tərbiyəsi və idman sahəsində könüllülərin fəaliyyətinin tələb olunan səviyyədə təşkil edilməməsi.

## 3. Milli Strategiyanın əsas məqsəd və vəzifələri

Bədən tərbiyəsi və idmanın inkişafı üzrə Milli Strategiya (BTİİMS) ölkədə bədən tərbiyəsi-sağlamlıq və idman sahəsində dövlətin uzunmüddətli siyasətini, əsas məqsəd və vəzifələrini əks etdirir. Bu sənəd Azərbaycanı 2020-ci ilədək dünyada aktiv və uğurlu idman dövlətinə çevirmək öhdəliyinin yerinə yetirilməsi üçün ölkə ərazisində fəaliyyət göstərən bütün təşkilatların idman fəaliyyətini bir tam halda birləşdirən strateji istiqamətləri və siyasət prioritetlərini müəyyən edir.

Milli Strategiyanın əsas məqsədi - fiziki, əqli və maddi imkanlarından asılı olmayaraq, ölkədə əhalinin bütün təbəqələri üçün öz bacarıqlarını reallaşdıra

bilmələrinə, bununla da sağlamlıqlarında və həyatlarında uğurlu inkişafa nail olmalarına şərait və imkanlar yaratmaqdan, insan haqları, həmçinin idmana dair beynəlxalq və milli qanunvericiliyi, cəmiyyətin bütün təbəqələrini (sosial qrupları), qabaqcıl dünya təcrübəsini nəzərə alaraq cəmiyyətin hərtərəfli inkişafına, demokratik ölkə quruculuğuna, Azərbaycanın dünyaya və Avropaya inteqrasiya olunmasının sürətləndirilməsinə, həmçinin onun beynəlxalq nüfuzunun yüksəldilməsinə xidmət etməkdir.

BTİİMS-in uzunmüddətli məqsədi - 2020-ci ilədək idmanı ölkədə və ölkəni idmanda lider etməkdir.

BTİİMS-n vəzifələri əsasən aşağıdakılardan ibarətdir:

- Ölkədə bədən tərbiyəsi və idmanın uzun müddətə inkişafının planlaşdırılması;
- Bədən tərbiyəsi və idmanın hərtərəfli kütləvi inkişafına və insanların gündəlik məişətinə daxil edilməsinə nail olunması;
- Bədən tərbiyəsi və idman vasitəsilə bütün yaş qruplarından olan insanların sağlamlığının möhkəmləndirilməsi, uşaq, yeniyetmə və gənclərin fiziki inkişafının təmin olunması;
- Bədən tərbiyəsi və idmanın, xüsusən təhsil müəssisələrində və yaşayış yerlərində, kütləvi inkişafının təmin edilməsi;
- Əmək məşğuliyyətindən asılı olaraq, əhalinin ayrı-ayrı təbəqələri və yaş qrupları arasında bədən tərbiyəsi və idmanın inkişafının təmin edilməsi məqsədilə xüsusi fiziki hərəkətlər kompleksinin hazırlanması və geniş formada tövsiyə edilməsi;
- Uşaq və yeniyetmələrin, xüsusən qızların idmanla məşğulluğa həvəs və marağını artıran tədbirlərin artırılması;
- Bədən tərbiyəsi və idmanın sağlamlıq imkanları məhdud olan insanlar (əlillər) arasında daha əsaslı və geniş inkişafına nail olunması;
- Bədən tərbiyəsi və idmanın sistemli inkişafının elmi əsaslarla dəyərləndirilməsi və təsdiqi, bədən tərbiyəsi və idman üzrə elmi-tədqiqat institutu yaradılması;
- Bədən tərbiyəsi və idman üzrə kadr hazırlığı məsələlərinin təkmilləşdirilməsi, Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qızların qəbulu faizinin artırılması və müəyyən edilmiş faizin təmin olunması;

- Bütün tipli idman məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, özlərinə məxsus ixtisaslaşdırılmış təlim-idman bazalarının yaradılması;

- Bədən tərbiyəsi və idmanın təbliği işlərinin genişləndirilməsi, bu məqsədlə idman jurnalistikası sahəsinin yaradılması, peşəkar kadrların hazırlanması;

- Cinsindən, yaşından, fiziki və ya əqli imkanlarından asılı olmayaraq, hər kəsin bütün səviyyələrdə bədən tərbiyəsi və idmanla məşğul ola bilməsinə və uğur qazanmasına münbit şərait yaratmaq.

Milli Strategiya bədən tərbiyəsi və idman sahəsindəki hədəfləri müəyyən edir və bu hədəflərə çatmaq üçün tərəfdaşlıq şəraitində işləməyin yeni yollarını axtarır.

## 4. Hədəflər

**Milli Strategiyanının əsas hədəfləri:**

a) beynəlxalq idman aləmində Azərbaycanı aktiv ölkəyə çevirmək

- bədən tərbiyəsi və idman hərəkatını genişləndirmək, bədən tərbiyəsi və idmanla məşğul olanların sayını ildən-ilə artırmaq. Bədən tərbiyəsi və idmanın qızlar arasında daha geniş və təsirli inkişafına nail olmaq. Sağlamlıq imkanları məhdud olan insanların (əlillərin) daha çox hissəsini bədən tərbiyəsi və idmanla məşğulluğa cəlb etmək. Bütün regionlarda, xüsusən kənd rayonlarında idmanın inkişafı üçün spesifik əməli tədbirər planlaşdırmaq və həyata keçirtmək;

- imkansız ailələrdən olan uşaq və yeniyetmələrin bədən tərbiyəsi və idmanla daha kütləvi, ödənişsiz məşğul olmalarına şəraitin yaradılması, onların idmanda qalmaları və uğur qazanmaları, bununla da həyatlarını zənginləşdirə bilmələri üçün konkret tədbirlərin planlaşdırılması və həyata keçirilməsinin təmin edilməsi;

b) Hər üç səviyyədə - idmanla məşğul olmağa başlamaqda, idmanda qalmaqda və idmanda uğur qazanmaqda insanlara kömək etmək.

Yaşından, etnik mənşəyindən və ya əlilliyindən asılı olmayaraq, hər kəsin idman fəaliyyəti dairəsinin genişləndirilməsi məsələsini həll etmək, idman təşkilatlarının, klubların, məşqçilərin və könüllülərin dinamik şəbəkəsini formalaşdırmaq, insanların idmanda qalması üçün davamlı infrastuktur yaratmaq.

c) Bədən tərbiyəsi və idmanın kütləviliyi

Hazırda Azərbaycanda bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayı 539.309 nəfərdir. Bu, əhalinin ümumi sayına nisbətdə 6.3%, fəal yaş qruplarına (5-

39 yaş) nisbətdə 10.5% təşkil edir. Ölkədə bədən tərbiyəsi və idmanla məşğul olan qızlar və qadınların sayı isə 137.020 nəfərə çatır. Bu göstərici qızlar və qadınların ümumi sayının (4.327.700) 1.6%-ni, fəal yaş qruplarında olanların isə 5.4%-ni təşkil edir.

İdman bölmələrində daim idmanla məşğul olanların ümumi sayı 406.535 nəfərdir. Bu göstərici əhalinin ümumi sayının 4.7%-i, bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayının isə 75%-i deməkdir.

Qızlar və qadınların bu sahədə göstəriciləri aşağıdakı kimidir:

- İdmanla məşğul olanlar - 83.368 nəfər, qadınların ümumi sayına olan nisbətdə - 1.9%, bədən tərbiyəsi və idmanla məşğul olan qadınların ümumi sayına olan nisbətdə isə - 60.8%.

Göründüyü kimi, bədən tərbiyəsi və idmanla məşğulluq üzrə göstəricilər bu gün ölkədə son dərəcə aşağı səviyyədədir. Xüsusən, qızlar və qadınlar arasında bu göstərici daha acınacaqlı (1.6%) vəziyyətdədir.

Müqayisə üçün qeyd etmək lazımdır ki, bədən tərbiyəsi və idmanla məşğulluq göstəriciləri əhalinin ümumi sayına nisbətə görə bir sıra ölkələrdə aşağıdakı vəziyyətdədir:

Finlandiya - 70%, Avstraliya - 57%, İngiltərə - 32%, Rusiya - 14%.

Yaranmış vəziyyətlə əlaqədar Milli Strategiyanın əsas hədəflərindən biri bədən tərbiyəsi və idmanın ölkədə kütləvi inkişafına nail olmaqdır. Belə ki, 2020-ci ilədək respublikada bədən tərbiyəsi və idmanla məşğul olanların sayının (o cümlədən qızlar və qadınların) ildə 2-3% artırılması, 2020-ci ildə isə ölkə üzrə ümumi göstəricinin 25-30%-ə, qızlar və qadınlar arasında isə - 15-20%-ə çatdırılması qarşıya məqsəd qoyulur.

ç) Azərbaycanı uğurlu idman ölkəsinə çevirmək:

- Yüksək səviyyəli idmançıların, komandaların hazırlanmasına nail olmaq. Onların köməkliyi ilə beynəlxalq yarışlarda xüsusən Olimpiya Oyunlarında, Dünya və Qitə yarışlarında daim uğurlar qazanmaq. Azərbaycanı beynəlxalq idman aləmində ön cərgələrə çıxarmaq.

d) 2020-ci il XXXII Yay Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsinə iddiaçı və sahib olmaq, Azərbaycanı Olimpiya ölkəsi etmək.

## 5.Milli Strategiyanının əsas istiqamətləri

1. Ölkədə bədən tərbiyəsi və idmanın vəziyyətinin dərindən öyrənilməsi;

2. Bədən tərbiyəsi və idmanın kütləvi inkişafının 2009-2020-ci illəri əhatə edən dövr üçün strateji planlaşdırılması;

3. Bədən tərbiyəsi və idmanın inkişafının regionların sosial-iqtisadi inkişaf proqramına uyğun ərazi prinsipi üzrə (şəhər və rayonlar) 2009-2020-ci illəri əhatə edən dövrə planlaşdırılması;

4. Təhsil müəssisələrində və yaşayış yerlərində bədən tərbiyəsi və idmanın infrastrukturunun inkişaf etdirilməsi;

5. Uşaqlar və yeniyetmələr arasında idmanla məşğulluğa həvəs oyadan və maraqları artıran kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin sayının artırılması, sağlamlıq imkanları məhdud olan insanların (əlillərin) bədən tərbiyəsi və idmanla məşğul olmaları, yarışlarda çıxış etmələri və uğurlar qazana bilmələri üçün tələb olunan şərait və imkanlar yaradılmasının təmin edilməsi;

6. Qızlar və qadınların bədən tərbiyəsi və idmanla məşğulluğa daha çox sayda cəlb olunması üzrə fəaliyyətin artırılması;

7. Ölkədə inkişaf etdirilən prioritet idman növlərinin müəyyənləşdirilməsi, onların regionlar üzrə dislokasiyasının təsdiqi, 2020-ci ilə kimi başqa idman növləri ilə dəyişilməsinə yol verilməməsi;

8. Yüksək səviyyəli idmançılar hazırlanması və peşəkar idmanın daha geniş inkişafının təmin edilməsi üzrə konkret tədbirlərin və icraçı təşkilatların müəyyənləşdirilməsi, idman nəticələrinin yaxşılaşdırılması, ölkə rekordlarının yeniləşdirilməsi və beynəlxalq uğurun artırılması;

9. Kadr tələbatının öyrənilməsi. Regionların və idman təşkilatlarının ixtisaslı peşəkar mütəxəssislərlə təmin olunmaları üzrə iş aparılması;

10. Regionlarda əhalinin say nisbətinə uyğun olaraq bədən tərbiyəsi və idman obyektləri inşasının planlaşdırılması;

11. Bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişafı və gücləndirilməsinin planlaşdırılması. İdman təşkilatlarının bütün idman qurğularının müasir idman avadanlıqları ilə təchizi. İdman sənayesi yaradılması;

12. Bədən tərbiyəsi və idmanın inkişafı, yüksək səviyyəli idmançılar hazırlanması sahələri üzrə elmi tədqiqatlar aparılması. Təhsil sahəsində qabaqcıl

beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiq edilməsi. Təhsil müəssisələrində fiziki tərbiyə dərslərinin saatlarının artırılması;

13. Ölkədə bədən tərbiyəsi və idman hərəkatının idarə olunması prosesinin təkmilləşdirilməsi, idman yönümlü qurumların sayının artırılması, bələdiyyə orqanlarının bu sahə üzrə fəaliyyətlərinin canlandırılması;

14. Bədən tərbiyəsi və idmanın inkişafına ayrılan maliyyə vəsaitinin həcminin ildən-ilə artırılmasının planlaşdırılması. Bu sahəyə investisiya qoyuluşuna özəl təşkilatların daha geniş cəlb edilməsi, sponsorluq fəaliyyətinin genişləndirilməsi və stimullaşdırılması;

15. Bədən tərbiyəsi və idman sahəsində Milli Stratefgiyanın tələblərinə uyğun olaraq, dövlət siyasətinə, qanunvericilik aktlarına və direktiv-normativ sənədlərə yenidən baxılması;

16. 2020-ci il Yay Olimpiya Oyunlarına iddiaçı və sahib olmaq.

## 6. Milli Strategiyanın prinsipləri

Xalqın sağlamlığının təmin edilməsinə, böyüməkdə olan gənc nəslin fiziki cəhətdən sağlam və güclü olmasına, xəstəliklərin, zərərli vərdişlərin qarşısının alınmasına, əhalinin əmək qabiliyyətinin yüksəldilməsinə, dövlətin müdafiə və iqtisadiyyatının möhkəmləndirilməsinə, beynəlxalq aləmdə Azərbaycan idmanının nüfuzunun yüksəldilməsinə yönəlmiş Milli Strategiya, ayrı-ayrı sahələr üçün yaradılan ənənəvi konsepsiya və proqramlardan fərqli olaraq, çoxaspektlidir və geniş əhatə dairəsinə malikdir.

Bədən tərbiyəsi və idmanın inkişafının Milli Strategiyası (BTİİMS) və onun həyata keçirilməsi ilə bağlı fəaliyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğundur, milli maraqların qorunmasına xidmət edir, beynəlxalq qurumların BMT-nin, Avropa Şurasının müvafiq standartlarını, tələb və tövsiyələrini, baxılan sahə üçün mühüm olan və Azərbaycan Respublikası tərəfindən qəbul olunmuş digər beynəlxalq aktların müddəalarını nəzərə alır.

Milli Strategiya ölkədə bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsinin səmərəliyini təmin etmək və bu prosesdə bütün maraqlı tərəflərin (dövlət orqanları, qeyri-hökümət təşkilatları, ictimai təşkilatlar, elm və tədris müəssisələri,

özəl qurumlar və fiziki şəxslər) iştirakı üçün bərabər şərait yaratmaq məqsədi ilə aşağıdakı əsas prinsipləri müəyyən edir:

Maarifləndirmə prinsipi - bədən tərbiyəsi və idmanın insanlar üçün nə dərəcədə faydalı olması barədə geniş təbliğat işləri aparılmasını, onlarda bədən tərbiyəsi və idmanla məşğulluğa həvəs və marağ yaradılmasını qarşıya məqsəd qoyur. Bu prinsip bədən tərbiyəsi və idmanın insanların məişətinə daxil edilməsində xüsusi rol oynayır.

Elmilik prinsipi - bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsində cəmiyyətin ümumi inkişafının obyektiv qanunlarından və bədən tərbiyəsi hərəkatının spesifik qanunauyğunluqlarından istifadə edir. Bu prinsipin mahiyyəti elmlə təcrübənin vəhdətindən ibarətdir.

Elmilik prinsipi bədən tərbiyəsi və idman hərəkatının təşkili və idarə edilməsinin elmi əsaslarla aparılmasına xidmət edir. Bu prinsipin əsas vəzifəsi problemlərin çoxsaylı həlli yolları içərisində ən səmərəli və məqsədəuyğun olanını aşkar edib təcrübədə tətbiqi istiqamətlərini müəyyənləşdirməkdir. Bu isə öz növbəsində bədən tərbiyəsi və idmanda daha az vaxt, qüvvə və vəsait sərf etməklə daha yüksək nəticələr əldə edilməsinə imkan verir.

Bərabərlik prinsipi -fiziki, əqli və maddi imkanlarından, eləcə də aid olduqları idarə mənsubiyyətindən asılı olmayaraq, ölkədə əhalinin bütün sosial təbəqələri və yaş qrupları üçün öz bacarıqlarını reallaşdıra bilmələrinə, bununla da sağlamlıqlarında və həyatlarında uğurlu inkişafa nail olmalarına eyni səviyyəli, heç bir fərq qoymadan, şərait və imkanlar yaradılmasını nəzərdə tutur.

Bərabərlik prinsipi bədən tərbiyəsi və idman hərəkatında iştirak edən bütün vətəndaş və qurumların bu sahədəki maraqlarını eyni dərəcədə nəzərə alaraq, onların potensial imkanlarını nümayiş etdirə bilmələrinə xidmət edir.

Optimallıq prinsipi - bədən tərbiyəsi və idmanın inkişafının kütləviliyini və yüksək dərəcəli idmançıların hazırlanması məsələlərinin həllində daha səmərəli yolların axtarılmasını, bədən tərbiyəsi və idmanın inkişafına ayrılmış maliyyə vəsaitindən, idman qurğuları və avadanlıqlarından, kadr potensialından və digər mövcud imkanlardan bacarıqla və effektli istifadə edilməsinə xidmət edir.

Mərhələlik prinsipi - Milli Strategiya, məlum olduğu kimi, uzun müddəti - 12 illik bir dövrü əhatə edir. Bununla əlaqədar Strategiyanın qarşısında duran əsas

məqsəd və vəzifələr müəyyən edilmiş mərhələlər üzrə həyata keçirilməlidir. Bu mərhələlər hər biri 4 ildən ibarət olan 3 Olimpiya dövrünü əhatə edir.

Hər bir mərhələdə Milli Strategiyanın müəyyən edilmiş istiqamətləri üzrə ölkədə bədən tərbiyəsi və idmanın inkişafının planlaşdırılmış səviyyədə reallaşdırılmasının təmin edilməsi məqsədilə xüsusi Dövlət Proqramları fəaliyyət göstərir. Mərhələlik prinsipi, eyni zamanda, 4-illik Dövlət Proqramlarının da hər birinin müəyyən edilmiş mərhələlər üzrə icrasını nəzərdə tutur.

Millilik prinsipi - ölkədə bədən tərbiyəsi və idman hərəkatının təşkili və inkişafında Azərbaycan xalqının milli tarixinə, mentalitetinə adət və ənənələrinə, maraq və arzularına istinad edir. Ölkədə yaşayan digər millətlərin nümayəndələri ilə birlikdə, azərbaycanlı gənclərin daha çox sayda yüksək səviyyəli idmançı və mütəxəssis kimi hazırlanması, onların beynəlxalq idman aləmində uğurlar qazana bilməsi millilik prinsipinin əsas məqsədidir. Bu prinsip həmçinin Azərbaycan xalqının sağlam və fiziki cəhətdən güclü bir millət olmasına xidmət edir.

Beynəlxalq əməkdaşlıq prinsipi - Azərbaycan Respublikasının bədən tərbiyəsi və idman üzrə üzv olduğu bütün beynəlxalq təşkilatların həyata keçirdikləri layihələrdə fəal iştirakını, təcrübə mübadilələrini, xarici dövlətlərlə bu sahədə əməkdaşlığını nəzərdə tutur.

Bədən tərbiyəsi və idmanın inkişafının Milli Strategiyası (BTİİMS) Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Böyük Britaniya Birləşmiş Krallığının İdman Şurası arasında 1 dekabr 2007-ci il tarixdə imzalanmış "Anlaşma Memorandumu"ndan irəli gələn əsas öhdəliklərdən biri olduğu üçün, məhz bu sahədə "Beynəlxalq İdman Həyəcanı Proqramı"nın icraçı təşkilatları olan - 2012-ci il London Olimpiya Oyunlarının Təşkilat Komitəsi, British Council, UK Sport və UNİCEF-lə birgə əməkdaşlıq beynəlxalq əməkdaşlıq prinsipinin demək olar ki, əsasını təşkil edir.

## 7. Milli Strategiyanın bölmələri və müddəti

Bütövlükdə Milli Strategiya aşağıdakı bölmələrdən ibarətdir:

I. Bədən tərbiyəsi və idmanın təhsil müəssisələrində inkişafı.

Bu bölmə Milli Strategiyanın əhatə etdiyi dövr ərzində ölkədə fəaliyyət göstərən bütün təhsil müəssisələrində (orta, kollec, orta ixtisas, ali), o cümlədən özəl təhsil ocaqlarında aşağıdakı məsələlərin həllini nəzərdə tutur:

- idman zallarının, sadə idman meydançalarının və digər idman obyektlərinin olması;
- orta ümumtəhsil məktəblərində bədən tərbiyə dərslərindən oyun idman növləri üzrə məşğələlərin keçilməsi;
- həftə ərzində, bədən tərbiyəsi dərsləri də daxil olmaqla, bədən tərbiyəsi və idmanla hər bir nəfərin ən azı 5 saat məşğul ola bilməsinin təmin edilməsi;
- orta ümumtəhsil məktəblərində səhər gimnastikasının bir qayda olaraq tətbiq edilməsi;
- uşaq və yeniyetmələrin fiziki tərbiyəsinin inkişafı ilə bağlı elmi və praktiki əsasların işlənib hazırlanması;
- orta ümumtəhsil məktəblərində idmanın ayrı-ayrı növləri üzrə ixtisaslaşdırılmış idman siniflərinin yaradılması.

II. İcmalarda, yaşayış yerlərində bədən tərbiyəsi və idmanın inkişafı.

Bu bölmə dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitlərindən, kapital qoyuluşu və digər təşkilatların gəlirlərindən bu məqsədə ayrılmış vəsaitlər hesabına icmalarda, xüsusən yaşayış yerlərində idman-sağlamlıq mərkəzlərinin, qurğularının və bu yönümlü obyektlərin tikintisi, təchizatı və vətəndaşların istifadəsinə təqdim olunmasını nəzərdə tutur.

Eyni zamanda yerlərdə bədən tərbiyəsi və idmanın inkişafının təşkili və idarə olunması məqsədilə bələdiyyələrdə, mənzil istismar və icma mənşəli təşkilatlarda bədən tərbiyəsi-sağlamlıq və idman işləri üzrə xüsusi ştatların, mövcud idman təşkilatlarının filiallarının (yerli idarələrinin) və yenilərinin yaradılması planlaşdırılır.

III. Bədən tərbiyəsi və idmanın təbliğinin genişləndirilməsi.

Bədən tərbiyəsi və idmanın inkişafında əhalinin kütləvi surətdə fiziki hərəkətlərlə məşğulluğa cəlb olunmasında, yüksək səviyyəli idmançıların hazırlanmasında təbliğatın rolu və yeri böyük əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq bu bölmə ölkədə bədən tərbiyəsi və idmanın təbliği üzrə işlərin daha geniş və effektiv formada təşkili və həyata keçirilməsini əhatə edir.

IV. Yüksək nailiyyətli idmanın inkişafı.

Bu məqsədə nail olunması üçün ölkədə ixtisaslaşdırılmış təlim-idman bazalarının sayının artırılması, mövcud bazaların müasir tələblər səviyyəsinə çatdırılması, müxtəlif idman növləri ilə məşğulluğa imkanı olan idman qurğularının inşası, respublika səviyyəli Olimpiya mərkəzlərinin, ixtisaslaşdırılmış idman məktəblərinin, siniflərinin, peşəkar idman klublarının, yeni respublika miqyaslı idman təşkilatlarının, milli antidopinq nəzarət sisteminin yaradılması, eləcə də digər bu təyinatlı tədbirlərin planlaşdırılması və həyata keçirilməsi tələb olunur.

Milli Strategiyanın həyata keçirilməsinin təmin edilməsi

Ölkədə bədən tərbiyəsi və idmanın kütləvi inkişafının müəyyən edilmiş dövrdə həyata keçirilməsi əsasən aşağıdakı əsas məsələlərin həllindən asılıdır:

- kütləvi bədən tərbiyəsi və yüksək nailiyyətli idmanın elmi-metodiki bazasının yaradılması
- infrastrukturun inkişafı;
- kadr hazırlığı məsələlərinin həlli;
- maddi-texniki bazanın təminatı;
- tələb olunan həcmdə maliyyə vəsaitinin ayrılması.

Milli Strategiyanın müddəti:

Bədən tərbiyəsi və İdmanın inkişafı üzrə Milli Strategiya 12-illik dövrü, yəni 2009-2020-ci illəri əhatə edir.

Milli Strategiya 3 Olimpiya dövründə (XXX Yay Olimpiya Oyunları - 2009-2012, XXXI Yay Olimpiya Oyunları - 2013-2016 və XXXII Yay Olimpiya Oyunları - 2017-2020-ci illər) həyata keçirilir.

Milli Strategiyanın icra taktikası hər biri 4illik müddətə planlaşdırılmış, ölkədə bədən tərbiyəsi və idmanın inkişafı üzrə 3 Dövlət Proqramından ibarətdir.

Bununla əlaqədar olaraq, Milli Strategiyanın əsasən 3 mərhələdə həyata keçirilməsi planlaşdırılır:

**I mərhələ - 2009-2012-ci illər**

"Bədən tərbiyəsi və idmanın kütləvi inkişafına başlanması"

Bu mərhələdə aşağıdakı tədbirlərin icrası nəzərdə tutulur:

- Təhsil müəssisələrində və yaşayış yerlərində (icmalarda, məhəllələrdə) kütləvi idman infrastrukturunun inkişafına başlanması;

- Təhsil müəssisələrindəki idman obyektlərinin qeydiyyatdan keçirilməsi, inventarlaşdırılması, yeni tikiləcək idman obyektlərinin təhsil müəssisələri üzrə konkret ünvanlarının müəyyənləşdirilməsi və inşasına başlanması;

- Bədən tərbiyəsi və idmanın geniş təbliğat və təşviqat işlərinin təşkilinə başlanması;

- "Böyük idmana" xidmət edən idman qurğuları və bazalarının rekonstruksiyasına və tələblərə uyğun olaraq yenilərinin inşasına başlanması;

- Ehtiyat qüvvələrinin hazırlanmasını təmin edə biləcək ixtisaslaşdırılmış regional Olimpiya hazırlığı mərkəzlərinin yaradılması;

- Bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayının 15-20%-ə, qızlar və qadınların isə 5-10%-ə çatdırılması.

**II mərhələ - 2013-2016-cı lilər**

"Bədən tərbiyəsi və idmanın kütləvi inkişafının artırılması"

Bu mərhələdə aşağıdakı tədbirlərin icrası nəzərdə tutulur:

- Kütləvi idman infrastrukturunun inkişafının başa çatdırılması;

- Təhsil müəssisələrində və yaşayış yerlərində idman obyektlərinin inşası proqramının davam etdirilməsi;

- Sağlamlıqları məhdud olan vətəndaşlar üçün xüsusi idman obyektlərinin inşasına başalnması;

- Bədən tərbiyəsi və idmanın təbliği və təşviqi üzrə tədbirlərin təşkili və həyata keçirilməsi;

- Gənclər arasında bədən tərbiyəsi və idmanın inkişafının müasir standartlar və tələblər səviyyəsinə uyğun ola bilməsi üçün işlərin aparılması;

- Ehtiyat qüvvələr hazırlanmasının təmin edilməsi məqsədilə şəhər və rayonlarda müəyyən edilmiş dayaq idman növləri üzrə Olimpiya hazırlığı mərkəzlərinin yaradılması işlərinin davam etdirilməsi;

- "Böyük idmana" xidmət edən yeni idman baza və qurğularının inşası proqramının davam etdirilməsi;

- Ölkədə bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayının 20-25%-ə, qızlar və qadınların isə 10-15%-ə çatdırılması.

**III mərhələ - 2017-2020-ci illər**

"Bədən tərbiyəsi və idmanın kütləvi inkişafına nail olunması"

Bu mərhələdə aşağıdakı tədbirlərin icrası nəzərdə tutulur:

- Təhsil müəssisələrində idman obyektlərinin inşası proqramının başa çatdırılması;

- Yaşayış massivlərində idman obyektlərinin inşası proqramının başa çatdırılması, yeni tikilən yaşayış yerlərində bu proqramın davam etdirilməsi;

- Sağlamlıq imkanları məhdud olan vətəndaşlar üçün xüsusi idman obyektləri inşasının davam etdirilməsi;

- Bədən tərbiyəsi və idmanın təbliği və təşviqi üzrə tədbirlərin təşkilinin davam etdirilməsi;

- Ehtiyat qüvvə hazırlanmasının təmin edilməsi məqsədilə şəhər və rayonlarda Olimpiya hazırlığı mərkəzlərinin yaradılması işlərinin başa çatdırılması;

- "Böyük idmana" xidmət edən idman bazaları və qurğularının inşası proqramının başa çatdırılması;

- Gənclər arasında bədən tərbiyəsi və idmanın müasir standartlar və tələblər səviyyəsində inkişafının təmin edilməsi;

- Ölkədə bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayının 25-30%-ə, qızlar və qadınların isə 15-20%-ə çatdırılması.

## 8. Ölkədə bədən tərbiyəsi və idmanın inkişafında dövlətin siyasəti və rolu

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı dövlətin, eləcə də ölkədə fəaliyyət göstərən bütün dövlət orqanlarının qarşısında duran ən əsas və vacib vəzifələrdən biridir.

Xalqın sosial inkişafının və mədəniyyətinin əsas sahələrindən biri olan bədən tərbiyəsi və idmana daim ciddi münasibət göstərən, böyük diqqət və qayğı ilə yanaşan dahi rəhbər, ulu öndərimiz Heydər Əliyev ictimaiyyətlə görüşlərində bu sahənin dövlətimiz və onun vətəndaşları üçün nə qədər vacib olduğunu dəfələrlə vurğulamışdır.

Bədən tərbiyəsi və idmanın inkişafı prosesi kütləvi bədən tərbiyəsi hərəkatı xarakteri daşıyır. Bu məsələnin həllində dövlət orqanları və ictimai təşkilatların fəaliyyəti vəhdət təşkil edərək, insanların fiziki hazırlığının təkmilləşməsi və yüksəlməsinə yönəldilmişdir.

Bədən tərbiyəsi və idman hərəkatının təşkili və idarə olunması xalqın maraqlarına və dövlətin siyasətinə uyğun olmalıdır. Bu sahədə dövlətin siyasəti "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində aşağıdakı kimi müəyyən edilmişdir:

- Bədən tərbiyəsi və idmanın hüquqi bazasını yaratmaq;
- Bədən tərbiyəsi və idmanın inkişafının təmin edilməsi;
- Yüksək dərəcəli idmançıların hazırlanması üçün bədən tərbiyəsi və idman təşkilatları, uşaq idman müəssisələri sistemini yaratmaq;
- Bədən tərbiyəsi və idmanın inkişafı üçün zəruri maddi-texniki baza yaratmaq;
- Bədən tərbiyəsi və idman sənayesini inkişaf etdirmək;
- Tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq, bütün idman təşkilatları üçün bərabər imkanlar yaratmaq.

Dövlət siyasətinin bu müddəaları eyni zamanda ölkədə bədən tərbiyəsi və idman hərəkatında dövlətin rolunu və fəaliyyət istiqamətlərini əks etdirir.

Bədən tərbiyəsi və idmanın kütləvi inkişafı, beynəlxalq aləmdə uğurlar qazana biləcək yüksək səviyyəli idmançıların hazırlanması hazırkı mərhələdə həddindən artıq mürəkkəb və çətin bir prosesdir. Bu proses onun müvəffəqiyyətlə həyata keçirilməsinə cəlb olunan bütün faktorlardan, o cümlədən siyasi-inzibati, maliyyə, insan, texniki və s. resurslardan səmərəli və effektiv istifadə olunmasını, prioritetlərin və fəaliyyət istiqamətlərinin düzgün müəyyən edilməsini, görülən işlərin tənzimlənməsini və əlaqələndirilməsini, bütövlükdə bu hərəkata dövlət səviyyəsində rəhbərlik və nəzarəti tələb edir. Bu səbəbdən, ölkədə bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi sahəsində "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi üçün Milli Strategiya və Dövlət proqramlarının qəbul edilməsi və icrası ən vacib məsələdir.

## 9. Milli Stratregiyanın hüquqi-normativ bazası

Bədən tərbiyəsi və idmanın inkişafı üzrə Milli Strategiyanın hüquqi-noramativ bazası, başqa sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də qəbul

edilmiş dövlət qanunlarıdır. Hüquqi-normativ aktlar arasında əsas sənəd Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Konstitutsiya vətəndaşların bədən tərbiyəsi və idmanla məşğul olmaq, sağlamlıqlarını qorumaq və möhkəmləndirmək hüquqlarını müəyyənləşdirir. Ölkədə bədən tərbiyəsi və idman hərəkatını istiqamətləndirən, inkişafını təmin edən əsas sənəd 1997-ci ildə qəbul edilmiş "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunudur.

Bundan əlavə, cəmiyyətin inkişafının digər sahələri üzrə (xüsusən təhsil, səhiyyə, müdafiə, hüquq-mühafizə, mədəniyyət və s.) qəbul edilmiş qanunlar da həmin sahələrdə bədən tərbiyəsi və idmanın yerini və istiqamətlərini müəyyənləşdirir, inkişafını təmin edir. Bu qanunlar əsasında və onların icrası məqsədilə dövlət mərkəzi icra hakimiyyəti orqanları tərəfindən bədən tərbiyəsi və idman üzrə qəbul olunmuş sənədlər bütövlükdə bədən tərbiyəsi və idmanın, eləcə də bu sahə üzrə müəyyən edilmiş Milli Strategiyanın hüquqi-normativ aktlar bazasını formalaşdırır.

Milli Strategiyanın həyata keçirilməsinin təmin edilməsində hazırda mövcud olan hüquqi-normativ aktlara və bundan sonra dövlət tərəfindən qəbul ediləcək yeni direktiv sənədlərə istinad edilir.

Milli Strategiyanın məqsəd və vəzifələri, hədəf və istiqamətləri onun uğurla reallaşdırıla bilməsi üçün bədən tərbiyəsi və idman sahəsindəki qanunvericilikdə müvafiq dəyişikliklər aparılmasını və əlavələr edilməsini tələb edir. Əks halda, Milli Strategiyanın və dövlət proqramlarının müəyyən edilmiş müddətlərdə icrası qeyri-mümkün olacaq.

Milli Strategiya bu sahədə aşağıdakı hüquqi normativ aktların hazırlanmasını planlaşdırır:

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun yeni variantda hazırlanması və qəbulu;
- “Uşaq idmanı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi;
- Sağlamlıq imkanları məhdud olan insanların idmanla məşğulluğu haqqında Azərbaycan Respublikası Qanununun hazırlanması və qəbulu;
- Bədən tərbiyəsi və idmanın Milli Fondunun yaradılması haqqında dövlət başçısının Fərmanının hazırlanması;

- "Ölkədə bədən tərbiyəsi və idman hərəkatının idarə edilməsi strukturunun təkmilləşdirilməsi haqqında" Respublika Nazirlər Kabinetinin qərarının hazırlanması;

- "Bədən tərbiyəsi və idmanın inkişafının dövlət proqramlarının" layihələrinin hazırlanması və Respublika Prezidenti tərəfindən təsdiq edilməsi.

## 10. Azərbaycanda Olimpiya hərəkatı

Müstəqillik dövrünə qədəm qoyduqdan sonra, xüsusilə 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinə cənab İlham Əliyev prezident seçildiyi vaxtdan ölkədə olimpiya hərəkatında yeni yüksəliş dövrü başlanmışdır. Milli Olimpiya Komitəsinin fəaliyyət dairəsi genişlənərək, beynəlxalq olimpiya hərəkatında Azərbaycan qısa bir müddətdə özünə ön cərgələrdə yer tuta bilmişdir.

Milli Olimpiya Komitəsi dövlət orqanları, ictimai təşkilatlar, özəl qurumlar, idman növləri üzrə respublika federasiyaları, idman cəmiyyətləri, klubları və digər bu yönümlü təşkilatların imkan və səylərini birləşdirərək, olimpiya hərəkatında birgə fəaliyyət göstərmək və bu fəaliyyəti mərkəzləşmiş formada idarə etmək mexanizmi hazırlaya bilmişdir. Məhz bu fəaliyyətin nəticəsində Azərbaycan artıq dünyada olimpiya ölkəsi kimi tanınmaqdadır. Aşağıdakı faktlar bu fikri tam təsdiqləyir:

- Son 10 il ərzində ölkənin ayrı-ayrı regionlarında, o cümlədən kənd rayonlarında beynəlxalq standartlara və normativlərə uyğun 19 olimpiya kompleksi tikilib istifadəyə verilib;

- Yaxın gələcəkdə - London Olimpiya Oyunlarına kimi daha 17 şəhər və rayonda müasir olimpiya komplekslərinin inşası və xalqın sərəncamına verilməsi dövlət səviyyəsində planlaşdırılmışdır;

- Ayrı-ayrı idman növləri üzrə olimpiya mərkəzlərinin yaradılması və idmançıların istifadəsinə verilməsi hər il planlı şəkildə həyata keçirilir;

- Olimpiya hərəkatının daha geniş formada vüsət alması, bədən tərbiyəsi və idmanın kütləvi inkişafının təmin olunması sahəsində konkret tədbirlər planlaşdırılır və uğurla reallaşdırılır;

- Yüksək səviyyəli idmançılar hazırlanması və beynəlxalq yarışlarda uğurların qazanılması fəaliyyətin əsas istiqamətlərindən birinə çevrilmişdir;

Azərbaycan 1996-cı ildə ilk dəfə olaraq XXVI Atlanta Yay Olimpiya Oyunlarında müstəqil dövlət kimi iştirak etmişdir. 23 idmançı ilə 10 idman növü üzrə Olimpiya Oyunlarına qatılan milli yığmamız, 1 gümüş medal qazanaraq, Oyunların iştirakçısı olan 197 dövlət arasında 61-ci yeri tuta bilmişdi.

2000-ci il XXVII Sidney Yay Olimpiya Oyunlarında Azərbaycan 31 idmançı ilə idmanın 12 növündə təmsil olunmuşdu. Oyunlara böyük və ciddi hazırlıq keçən milli olimpiya komandamız nəticədə 2 qızıl və 1 bürünc medalla 199 ölkə arasında keyfiyyətə görə 34-cü, medalların sayına görə isə 49-cu yerləri tutmuşdu.

2004-cü il XXVIII Afina Yay Olimpiya Oyunlarında ölkəmiz 12 idman növündə 38 idmançı ilə çıxış edərək, 1 qızıl və 4 bürünc medala sahib olmuşdu. Bu nəticə milli olimpiya komandamızın Afina Olimpiya Oyunlarında keyfiyyətə görə 50-ci, saya görə isə 37-ci yerləri tutmasına imkan verdi. İdmançılarımızdan daha 12 nəfəri 4-10-cu yerlərdə müəyyənləşdilər.

2008-ci il XXIX Pekin Yay Olimpiya Oyunları

Son illər yüksək idman nailiyyətləri ilə bütün dünyanın diqqətini cəlb edən ölkəmiz Pekin - 2008-də yeni rekordlar müəyyənləşdirdi. Özünə məxsus rekord sayda - 44 idmançı ilə Oyunlara qatılmış milli olimpiya komandamız idmanın 11 növündə medallar uğrunda mübarizəyə qoşulmuşdu. Yarışlar Azərbaycan idmançıları üçün yeni rekordlarla başa çatdı:

- 7 medal - 1 qızıl, 2 gümüş, 4 bürünc qazanıldı.
- Daha 15 idmançımız 4-10-cu yerlərdə qərarlaşdı.

Azərbaycan XXIX Olimpiya Oyunlarında keyfiyyətə görə 39-cu, medalların sayına görə isə 27-ci oldu.

XXIX Pekin Yay Olimpiya Oyunlarında iştirak edən 203 ölkədən yalnız 55-i oyunların qızıl medalına sahib ola bilmişdi. Sevindirici haldır ki, onların sırasında Azərbaycan da vardır.

Azərbaycan idmançılarının son üç olimpiya oyunlarında əldə etdikləri nailiyyətlər onların bu illər ərzində beynəlxalq yarışlarda, xüsusən dünya və qitə birinciliklərində qazandıqları uğurların qanunauyğun nəticəsi kimi qəbul olunur. Bununla əlaqədar, idmançılarımızın son 4 ildə olimpiya oyunları proqramına daxil

edilmiş idman növləri üzrə iştirak etdikləri rəsmi beynəlxalq yarışlarda tutduqları mükafata layiq yerlərə bir daha diqqət yetirək:

| **İL** | **DÜNYA və AVROPA** | | | **Cəmi** |
|---|---|---|---|---|
| | **I** | **II** | **III** | |
| 2004 | 19 | 19 | 37 | 75 |
| 2005 | 34 | 29 | 59 | 122 |
| 2006 | 23 | 26 | 72 | 121 |
| 2007 | 61 | 39 | 74 | 174 |

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda göstərdikləri nəticələr, əldə etdikləri nailiyyətlər beynəlxalq və Avropa idman federasiyalarının diqqət və maraqlarının ölkəmizə yönəlməsinə səbəb oldu.

1998-ci ildən başlayaraq, ölkəmizdə xüsusən paytaxt Bakıda, idmanın bir çox növləri üzrə Dünya və Avropa çempionatları, birincilikləri, Kubok yarışları, Olimpiya lisenziyalı və digər rəsmi beynəlxalq turnirlər keçirilir. Bütün tədbirlər həm təşkilatçılar, həm də iştirakçılar tərəfindən ən yüksək səviyyədə qiymətləndirilir.

Yuxarıda göstərilən bütün faktlar Azərbaycanın dünyada artıq bir idman ölkəsi kimi tanınmasına əsas və baza yaratmışdır.

Dövlət və Milli Olimpiya Komitəsi sözün əsl mənasında Azərbaycanda Olimpiya Hərəkatını gündən-günə genişləndirməyi və bu sahədə yeni-yeni nailiyyətlər əldə olunmasını qarşıya əsas məqsəd və vəzifə kimi qoymuşdur. Məhz buna görə Azərbaycan 2016-cı il XXXI Yay Olimpiya Oyunlarına iddiaçı olmuş 6 ölkə sırasında özünə yer tuta bilmişdi. Növbəti mərhələyə çıxa bilməsə də, Azərbaycan qarşısına qoyduğu bu məqsəddən imtina etmir. İdmanın inkişafının Milli Strategiyasının əsas istiqamətlərindən biri 2020-ci il XXXII Yay Olimpiya Oyunlarının ölkəmizdə keçirilməsinə nail olmaqdır.

Bu istiqamətdə Azərbaycan dövləti, onun başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev tələb olunan bütün tədbirlərin planlaşdırılıb, ən yüksək səviyyədə həyata keçirilməsinə tam zəmanət verir.

Azərbaycan xalqı gələcəyə böyük ümidlə baxır və inanır ki, 2020-ci il Yay Olimpiya Oyunlarına məhz Bakı şəhəri sahib olacaq. Bu isə ölkəmizin beynəlxalq

idman aləmində qazandığı nüfuzu daha da artırıb, dünya dövlətləri arasında Azərbaycanı idman sahəsində ön sıralara çıxaracaq.

## 11. Bədən tərbiyəsi və idmanın infrastrukturunun inkişafı

- Ölkədə yeni müasir standartlara uyğun idman qurğuları və bazalarının inşa edilməsi;
- Kütləvi idman infrastrukturunun təhsil müəssisələrində və yaşayış yerlərində inkişafının təmin edilməsi. O cümlədən:
- 2020-ci ilə kimi bütün ümumtəhsil məktəblərində, kolleclərdə, ali və orta ixtisas təhsil müəssisələrində müasir idman avadanlıqları ilə təchiz edilmiş idman zalları, üzgüçülük hovuzları və idman meydançalarının inşası;
- Yaşayış massivlərində, xüsusən yeni tikilən yaşayış yerlərində uşaq idman şəhərciklərinin, digər idman obyektlərinin planlaşdırılması və inşası;
- Regionların sosial-iqtisadi inkişaf proqramlarında yeni idman qurğularının, xüsusən müvafiq regionlar üçün ənənəvi və prioritet sayılan və dayaq idman növü kimi müəyyən edilmiş növlər üzrə təlim-idman bazaları tikintisinin planlaşdırılması və inşası;
- İdman bölmələrinə cəlb edilənlərin sayına görə, bu göstəricinin gələcək dinamikasını nəzərə almaqla, yeni inşa ediləcək təlim-idman bazalarının hər il üçün say və buraxılış imkanlarını müəyyənləşdirmək;
- Regionlarda inşası nəzərdə tutulmuş sosial-mədəni obyektlərdə, o cümlədən təhsil müəssisələrində, turizm mərkəzlərində, mədəniyyət evlərində, istirahət parklarında, sağlamlıq mərkəzləri və zonalarında, sanatoriya-kurort müəssisələrində idman obyektlərinin, bədən tərbiyəsi və idman yönümlü aktiv istirahət güşələrinin planlaşdırılması;
- Yeni inşa edilən yaşayış massivlərində idman şəhərciklərinin məcburi qaydada layihələrə salınmasına və inşasına "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə əsasən nail olunması;
- 2020-ci ilə kimi respublikanın bütün şəhər və rayonlarında müasir olimpiya kompleksləri inşa edilməsi;
- Mövcud olan və gələcəkdə inşa ediləcək idman qurğularında, o cümlədən olimpiya komplekslərində sağlamlıq imkanları məhdud olan insanların bədən tərbiyəsi və idmanla məşğul ola bilmələri üçün imkan və şəraitin yaradılması;

- Ölkədə böyük tələbat duyulan üzgüçülük hovuzlarının və güllə atıcılığı tirlərinin inşası və istifadəyə verilməsi üzrə xüsusi proqram hazırlanması;

- Qaçqınlar üçün inşa edilmiş və ediləcək qəsəbələrdə idman obyektləri tikintisinin və qaçqın uşaqların istifadəsinə verilməsinin təmin edilməsi;

- Təhsil müəssisələrinin idman qurğularından dərslərdən sonra, müvafiq ərazilərdə yerləşən idman təşkilatlarının, xüsusən uşaq idman məktəblərinin tələbatına uyğun istifadə edə bilmələrinə şərait yaradılması;

- Avarçəkmə növləri üzrə "Kür" Olimpiya bazasında inşa işlərinin başa çatdırılması və 2010-cu ilə kimi istifadəyə verilməsi;

- 2020-ci ilə kimi Bakı şəhərində dünyanın ən möhtəşəm idman qurğularından biri olacaq yeni Olimpiya Stadionunun inşa edilməsi.

## 12. Milli Strategiyanın maliyyə təminatı

Bədən tərbiyəsi və idmanın inkişafı üzrə Milli Strategiyanın uğurla həyata keçirilməsi, onun qarşısında duran məqsəd və vəzifələrinə tam nail olunması bu sahəyə böyük həcmdə maliyyə vəsaitinin ayrılmasını tələb edir.

Bədən tərbiyəsi və idmana xərclənən maliyyə vəsaitlərinin həcmi, bölgüsü və istifadəsi milli gəlirin həcmindən, dövlətin iqtisadi gücündən, eləcə də bədən tərbiyəsi və idmanın inkişaf səviyyəsindən asılıdır.

Maliyyə vəsaitlərinin ayrılması mənbələrinin müəyyənləşdirilməsi, vəsaitlərin toplanması və istifadə olunması ölkədə bədən tərbiyəsi və idmanın maliyyə təminatını, bu sahənin idarə olunmasında iştirak edən dövlət və qeyri-dövlət orqanları və ictimai təşkilatların, xüsusən bədən tərbiyəsi və idman yönümlü qurumların maliyyə fəaliyyətini yaradır.

Bədən tərbiyəsi və idmanın inkişafının uzunmüddətli planlaşdırılması zamanı Strategiyanın əhatə etdiyi dövrün tələblərinə uyğun olaraq regional maliyyə siyasəti formalaşdırılmalıdır. Strategiyanın həyata keçirilməsi aşağıdakı əsas mənbələrdən maliyyələşdirilir:

- Dövlət büdcəsindən bu sahəyə ayrılan birbaşa və dolayı maliyyə vəsaitləri;

- Müxtəlif dövlət və qeyri-dövlət fondlarının vəsaitləri;

- Bədən tərbiyəsi və idmanın Milli fondu, Həmkarlar ittifaqları və digər ictimai təşkilatların ayırdıqları vəsaitlər;

- Ayrı-ayrı şirkətlər, istehsalat müəssisələri, fermer təsərrüfatları və digər bu kimi təşkilatların ayırmalarından daxil olan vəsaitlər;

- Hüquqi və fiziki şəxslərin idmana sponsorluq fəaliyyətindən;

- Bədən tərbiyəsi və idman təşkilatlarının özlərinin kommersiya fəaliyyətlərindən əldə etdikləri vəsaitlər.

Milli Strategiyanın maliyyələşdirilməsinə cəlb olunmuş maliyyə vəsaitləri əsasən aşağıdakı istiqamətlər üzrə istifadə olunmalıdır:

- Bədən tərbiyəsi və idmanın infrastrukturunun genişləndirilməsinə;

- İdmanın maddi-texniki bazasının inkişaf etdirilməsi və möhkəmləndirilməsinə;

- Uşaq və yeniyetmələrin idmanla məşğulluğa cəlb olunmaları və idmanda qalmalarının təmin olunmasına;

- İdman sənayesinin inkişaf etdirilməsinə;

- Yerlərdə daha çox sayda təlim-idman qurğularının tikintisinə;

- İdman qurğularının spesifik idman avadanlıqları, ləvazimatları, texniki vəsaitlər və digər tələb olunan materiallarla təchizatına;

- İxtisaslaşdırılmış uşaq-idman məktəblərinin, Olimpiya hazırlığı mərkəzlərinin yaradılması və fəaliyyətlərinin təşkilinə;

- Yüksək dərəcəli idmançıların hazırlanmasına;

- İmkansız, yaxud az imkanlı ailələrdən idmana cəlb olunmuş uşaqların tam təminata götürülmələrinə;

- Kütləvi bədən tərbiyəsi-sağlamlıq və idman tədbirlərinin təşkili və keçirilməsinə;

- Məhəlli idmanın inkişafına;

- Sağlamlıq imkanları məhdud olan insanlar arasında bədən tərbiyəsi və idman işlərinin təşkilinə;

- Milli yığma komandaların beynəlxalq yarışlara hazırlığı və iştirakına.

Azərbaycan Respublikasında il ərzində bədən tərbiyəsi və idman hərəkatına bütövlükdə 22-25 milyon manat çərçivəsində maliyyə vəsaiti ayrılır və istifadə olunur.

Eyni zamanda dövlət büdcəsindən ölkədə bədən tərbiyəsi və idmanın infrastrukturunun inkişafına (idman qurğularının inşasına və təmir işlərinə) hər il 50-60 milyon manat həcmində kapital qoyuluşu müəyyən edilir.

Bunlardan əlavə digər qeyri-dövlət, ictimai təşkilatlar və özəl qurumların bədən tərbiyəsi və idmanın inkişafına ayırdıqları maliyyə vəsaitinin həcmi il ərzində təxminən 5-10 milyon manat təşkil edir.

Beləliklə, il ərzində ölkədə bədən tərbiyəsi və idmanın inkişafına, kapital qoyuluşu da nəzərə alınmaqla - 70-80 milyon manat vəsait ayrılır.

Müqayisə üçün qeyd etmək lazımdır ki, bu rəqəm İngiltərədə bir ildə 2 milyard funt sterlinqdən artıq, Rusiyada isə 3 milyard rubla yaxındır.

Bilavasitə bədən tərbiyəsi və idmanın inkişafına sərf edilən maliyyə vəsaitinin ümumi həcmi isə yuxarıda qeyd edildiyi kimi 22-25 milyon manat təşkil edir. Bu da idman bölmələrində məşğul olanların (539 309 nəfər) hər birinin payına ildə 40 manat, bədən tərbiyəsi və idmanla məşğul olanların isə (1.600.000 nəfər) hər bir nəfərinə il ərzində 15 manat düşməsi deməkdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici İngiltərədə adambaşına - 329 funt (398 manat) təşkil edir. Bu göstəricilər ölkədə bədən tərbiyəsi və idman sahəsinə ayrılan maliyyə vəsaitinin bədən tərbiyəsi və idmanla məşğul olanların sayına nisbətdə az olduğunu bir daha parlaq şəkildə nümayiş etdirir.

Vəziyyətin yaxşılaşdırması üçün strategiyanın əhatə etdiyi dövr ərzində hər il büdcədən ayrılan dövlət vəsaitinin eləcə də digər qurumların bu sahəyə yönəltdikəri vəsait həcmlərinin qanunauyğun şəkildə artırılması nəzərdə tutulur.

Belə ki, 2020-ci ilədək Azərbaycanda bədən tərbiyəsi idman sahəsinə ayrılan maliyyə vəsaitinin bütövlükdə bir ildə təxminən 200-250 milyon manata çatdırılması planlaşdırılır. Bu da öz növbəsində ölkədə bədən tərbiyəsi və idmanla məşğul olacaq hər bir nəfərin payına il ərzində 150-200 manat düşməsinə zəmin yaradır.

## 13. Milli Strategiyanının icrasına rəhbərlik, koordinasiyası və nəzarət

Bədən tərbiyəsi və idmanın inkişafı üzrə Milli Strategiyanın icrasının təşkili, bu işlərə rəhbərlik və nəzarətin həyata keçirilməsi, bu sahəyə cəlb olunmuş bütün təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi və tənzimlənməsi məqsədilə ən yüksək səviyyədə Koordinasiya Şurası yaradılır.

Koordinasiya Şurasının tərkibinə Milli Strategiyanın əhatə etdiyi sahələr üzrə müvafiq dövlət orqanlarının, nazirliklərin, komitələrin və ictimai təşkilatların rəhbərləri daxil edilir. Koordinasiya Şurası Milli Strategiyanın həyata keçirilməsi

gedişatında ortaya çıxan təkliflərə baxır, lazım gələrsə bu sahədə müəyyən dəyişikliklərin yaxud əlavələrin edilməsi haqqında qərar qəbul edir. Milli Strategiyanın icrasının hər ilin yekunlarına görə müzakirəsini keçirir, təşkilatların bu sahədəki fəaliyyətlərini qiymətləndirir.

Koordinasiya Şurası - ölkədə bədən tərbiyəsi və idmanın inkişafı sahəsində fəaliyyət göstərən bütün dövlət, ictimai və özəl təşkilatlarla birlikdə bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2009-2020-ci illəri əhatə edən Milli Strategiyanın və Dövlət Proqramlarının uğurla həyata keçirilməsini təmin edir.

Bu məqsədlə Koordinasiya Şurası tərəfindən baxılmış və təsdiq olunmuş xüsusi icra mexanizmi sənədi hazırlanır.

Milli Strategiyanın bilavasitə icrası məhz qəbul olunmuş icra mexanizminə uyğun olaraq həyata keçirilir.

## 14. Gözlənilən nəticələr

Dövlət orqanlarının, qeyri-hökümət və ictimai təşkilatların, özəl qurumların Milli Strategiyanın müəyyənləşdirdiyi istiqamətlər üzrə fəaliyyətlərinin təşkili və ayrı-ayrı dövrlərə planlaşdırılmış tədbirlərin uğurla həyata keçirilməsi nəticəsində ölkədə bədən tərbiyəsi və idman hərəkatında yeni mühit formalaşacaq və 12 illik müddətdə aşağıdakı strateji nəticələrə nail olunacaq:

- Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın kütləvi inkişafı təmin ediləcək. Bədən tərbiyəsi və idmanla məşğulluğa cəlb olunanların ümumi sayı əhalinin fəal yaş qruplarının ümumi sayına nisbətdə 30%-faizə, qızlar və qadınların sayı isə qadınların ümumi sayına nisbətdə 20%-faizə çatdırılacaq.
- Uşaq və yeniyetmələrin, sağlamlıq imkanları məhdud olan gənclərin idmanla məşğul ola bilmələri üçün uşaq bağçalarında, uşaq evlərində, digər bu tipli müəssisələrdə tələb olunan hər cür şərait yaradılacaq.
- Ölkədə fəaliyyət göstərən bütün idman qurğularında əhaliyə pulsuz xidmət göstəriləcək.
- Məhəlli idmanın inkişafına nail olunacaq.
- Şəhər və rayonlarda prioritet sayılan və dayaq idman növləri kimi müəyyən edilmiş idman növləri üzrə tələb olunan sayda təlim-idman bazaları inşa ediləcək və fəaliyyət göstərəcək.

- Kadr məsələlərində yaranmış problemlər həll ediləcək. Bu sahə üzrə kadr hazırlığı ilə məşğul olan təhsil müəssisələri ölkədəki tələbatı nəzərə alacaq, mütəxəssislərin idman növləri üzrə hazırlığını və təyinatla işə göndərilmələrini təmin edəcəklər.

- Bədən tərbiyəsi və idmanın maddi-texniki bazası möhəmləndiriləcək. İdman sənayesi inkişaf etdiriləcək.

- Bədən tərbiyəsi və idmanın maliyyə təminatı ildən-ilə artırılacaq. Bu sahəyə ayrılan dövlət vəsaiti hər il müəyyən edilmiş faiz həcmində artırılaraq 2020-ci ildə 200-250 milyon manata çatdırılacaq.

- Bədən tərbiyəsi və idman sahəsinə investisiya qoyuluşu üzrə fəaliyyət genişləndiriləcək.

- Bədən tərbiyəsi və idman fəaliyyətinin idarə olunması strukturu təkmilləşdiriləcək, regionlarda bu sahə üzrə fəaliyyət göstərən qurumların sayı artırılacaq. Bədən tərbiyəsi və idman fəaliyyətinin təşkili və idarə olunmasında qeyri-hökümət orqanlarının, xüsusən bələdiyyələrin iştirakı daha da fəallaşdırılacaq.

- Bədən tərbiyəsi və idmanın inkişafı elmi əsaslarla təşkil ediləcək. Bu sahədə yeni elmi tədqiqatlar aparılacaq, milli yığma komandalarda elmi kompleks qrupları fəaliyyət göstərəcək.

- Azərbaycan idmanda aktiv və uğurlu ölkəyə çevriləcək. Azərbaycan idmançılarının beynəlxalq yarışlardakı nəticələri daha da artacaq, Azərbaycan dünya idmanında öz mövqelərini yaxşılaşdıracaq.

- Azərbaycan 2020-ci il Olimpiya Oyunlarına iddiaçı və sahib olacaq, 2020-ci il Olimpiya və Paralimpiya Oyunlarının Azərbaycanda keçirilməsinin dəstəklənməsi milli idman infrastrukturunu genişləndirəcək, idmanda davamlı varisliyi bərqərar edəcək, ölkədə iqtisadi və sosial məsələlərə güclü təsir göstərəcək.

***Qeyd: Bədən Tərbiyəsi və İdmanın İnkişafı üzrə Milli Strategiya layihəsi ilə bağlı fikir və təkliflərinizi Gənclər və İdman Nazirliyinin İdman Şöbəsinə təqdim edə bilərsiniz.***